## ***ALİ MƏCLİSİN İCLASI***

*25 oktyabr 2024-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini* ***Bəxtiyar Məmmədov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının üçüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
|---|---|
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasın gündəliyinə aşağıdakı məsələ daxil edilir:

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Gündəlik qəbul olunur.

Hörmətli deputatlar!

Gündəlikdə duran məsələ ikinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Qanun layihəsi 21 oktyabr 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilmiş və Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunmuşdur.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim! Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə yenidən baxılıb, hər hansı dəyişiklik edilməsi nəzərdə tutulmur. Bu baxımdan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ikinci oxunuşda qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Beləliklə, səs verməyə keçək.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.03 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Rafiq müəllim, buyurun!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim,

Səsvermədə iştirak edən 44 deputat layihənin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, Daxili Nizamnamənin 20.4-cü maddəsinə uyğun olaraq təklif edirəm ki, qanun layihəsinə etirazı olan varsa, maddə-maddə müzakirə edək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Etiraz yoxdursa, qanun layihəsini oxumaq üçün söz Ali Məclis Aparatının Protokol sektorunun müdiri Elşən Yolçuyevə verilir.

Buyurun, Elşən müəllim!

**E.Yolçuyev,** *Ali Məclis Aparatının Protokol sektorunun müdiri.*

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq qərara alır:

1. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Karantin rejiminin tətbiqi ilə əlaqədar muxtar respublika ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlər deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilmir.”;

1.2. 8-ci maddənin ikinci hissəsində ikinci halda “Məclisi” sözü “Məclisinin komitə və” sözləri ilə əvəz edilsin;

1.3. 9-cu maddə üzrə:

1.3.1. ikinci hissənin ikinci bəndindən “və əlavələr” sözləri çıxarılsın, “haqqında” sözündən sonra “layihə” sözü əlavə edilsin, üçüncü bəndində “qüvvədən düşməsi” sözləri “ləğv edilməsi” sözləri ilə əvəz edilsin, dördüncü bənddən “və əlavələr” sözləri çıxarılsın;

1.3.2. üçüncü hissədə “Məclisi” sözü “Məclisinin” sözü ilə əvəz edilsin və həmin hissəyə “komissiyalarında” və “komissiyalarının” sözlərindən əvvəl “komitə və” sözləri əlavə edilsin;

1.4. 10-cu maddənin birinci hissəsində “, Naxçıvan Muxtar Respublikasının Milli Bankının idarə heyətinə” sözləri çıxarılsın;

1.5. 16-cı maddə üzrə:

1.5.1. birinci hissədə “qərarlarını” sözü “qanunlarını” sözü ilə, “deputat etikasını gözləməlidir” sözləri “etik davranış qaydalarına əməl etməlidir” sözləri ilə əvəz edilsin;

1.5.2. ikinci hissənin birinci cümləsində “Məclisi” sözü “Məclisinin komitə və” sözləri ilə əvəz edilsin;

1.5.3. ikinci hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Deputat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində nəzərdə tutulmuş digər hallarda həmin Nizamnamə ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur.”;

1.6. 17-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 17. Deputatın etik davranış qaydaları

Deputatın etik davranış qaydaları və həmin qaydalara əməl olunmasının hüquqi mexanizmi “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu ilə müəyyən edilir.”;

1.7. 18-ci maddənin birinci hissəsinin ikinci cümləsində “dövlət kütləvi informasiya vasitələrində” sözləri “rəsmi mediada” sözləri ilə əvəz edilsin;

1.8. 21-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 21. Deputatın maddi təminatı

Ali Məclisin sədri 3330 manat məbləğində aylıq vəzifə maaşı alır.

Ali Məclis sədrinin birinci müavini Ali Məclis sədrinin aylıq vəzifə maaşının 95 faizi, Ali Məclis sədrinin müavini 90 faizi, Ali Məclisin komitə sədri 65 faizi, Ali Məclisin komitə sədrinin müavini 60 faizi, Ali Məclisin deputatı isə Ali Məclis sədrinin aylıq vəzifə maaşının 50 faizi miqdarında aylıq vəzifə maaşı alır.

Ali Məclisin sədri, onun birinci müavini və müavini hər ay vəzifə maaşlarının 2 misli, Ali Məclisin komitə sədrləri, onların müavinləri və Ali Məclisin deputatları hər ay vəzifə maaşlarının 1,5 misli həcmində vəzifə maaşına əlavə alırlar.”;

1.9. 24-cü maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Deputat Naxçıvan Muxtar Respublikası ərazisində dövlət mülkiyyətində olan dəmir yolu, hava, avtomobil nəqliyyatında gediş-gəliş sənədlərini növbədənkənar əldə etmək hüququndan istifadə edir.”;

1.10. 28-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 28. Deputatın məzuniyyəti

Ali Məclis tətilə buraxıldığı vaxt deputata məzuniyyət verilir.”;

1.11. 29-cu maddəyə aşağıdakı məzmunda birinci hissə əlavə edilsin:

“Səlahiyyət müddəti qurtardıqdan sonra sabiq deputat işə düzələnədək 1 il müddətində hər ay deputatın aylıq vəzifə maaşının 80 faizi məbləğində qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müavinət alır.”;

2. Bu Qanun 2024-cü il oktyabrın 1-dən qüvvəyə minir.

**Sədrlik edən.** Çox sağ olun!

Başqa təklif yoxdur ki?

Yoxdur.

Biz qanun layihəsinin ikinci oxunuşda qəbul olunması üçün səsvermə keçirməliyik.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.08 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Rafiq müəllim, buyurun!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim,

Səsvermədə iştirak edən 44 deputat layihənin lehinə səs verdi, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, Daxili Nizamnamənin 20.5-ci maddəsinə əsasən ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır. Lakin qəbul etdiyimiz qanun layihəsində birinci və ikinci oxunuşlarda düzəlişlər olmayıb. Buna baxmayaraq Daxili Nizamnamənin qeyd edilən maddəsinə uyğun olaraq layihə üçüncü oxunuş üçün hazırlanması məqsədilə Hüquq siyasəti komitəsinə qaytarılır.

Etiraz etmirsinizsə, saat 11-dək fasilə edək və həmin müddət ərzində Hüquq siyasəti komitəsi layihəyə bir daha baxıb üçüncü oxunuşa təqdim etsin.

Etiraz edən yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur.

Saat 11-dək fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli deputatlar!

Müzakirə edəcəyimiz məsələ üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Hüquq siyasəti komitəsi qanun layihəsinə yenidən baxaraq üçüncü oxunuşa təqdim edib. Layihədə hər hansı dəyişiklik yoxdur.

Məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə Hüquq siyasəti komitəsində baxıldı, qanun layihəsində hər hansı təklif və dəyişiklik olmadı. Bu səbəbdən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi üçüncü oxunuşda qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun!

Daxili Nizamnamənin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulur. Qanun layihəsinin üçüncü oxunuşu zamanı onun mətnində dəyişikliklər edilə bilməz.

Ona görə də biz layihəni üçüncü oxunuşda səsə qoymalıyıq.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Rafiq müəllim, buyurun!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim,

Səsvermədə iştirak edən 44 deputat layihənin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, Qanun qəbul edildi.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

Sağ olun!